# Cövdət Hacıyevin səkkizinci simfoniyası

**Görkəmli Azərbaycan bəstəkarı, milli simfonik musiqinin əsaslarını qoyanlardan biri Cövdət Hacıyevin yaradıcılıq yolunu 1995-ci ildə yazılan Səkkizinci "Onu zaman seçib" adlı qəhrəmani-tragik simfoniya bitirir. Bu simfoniya görkəmli siyasi xadim, Azərbaycanın ümummilli lideri Heydər Əliyevə həsr olunub.**

*Bəstəkar özü bu haqda belə deyirdi: " Səkkizinci simfoniyanı mən "Onu zaman seçib" adlandırmışam və Azərbaycan xalqının böyük oğlu, müdrik siyasətçi H.Əliyevə həsr etmişəm. 1969-cu ildən bəri Azərbaycan Respublikasının çiçəklənməsi, onun mədəniyyəti və iqtisadiyyatının inkişafı naminə əlindən gələni əsirgəməyən H.Əliyevi tarixin özü yenə də Azərbaycan xalqı üçün ən taleyüklü bir zamanda dövlətimizin sükanı arxasına qoyub. Və biz, incəsənət adamları belə çətin bir vaxtda bu nəhəng vəzifəni öz üzərinə götürən prezidentin Azərbaycan dövlətçiliyi və xalqın rifahı naminə onu uğurla yerinə yetirəcəyinə şübhəsiz ki, inanırıq. Mən də özümün bütün düşüncə və həyəcanlarımı musiqi dili ilə Səkkizinci simfoniyada verməyə çalışmışam. Buna nə dərəcədə nail olmağımı musiqisevərlər, tamaşaçılar, xalqım deyəcək".*

*Bu simfoniyada Cövdət Hacıyev özünün Dördüncü simfoniyasındakı kimi, "qəhrəman və xalq" mövzusuna yenidən qayıdır, lakin artıq tamamilə fərqli bədii-sosial səviyyədə - Azərbaycan xalqının 90-cı illərdəki həyatı ilə bağlı bir dövrü əhatə edir. Bu əsər novatorlu, sintetik kompozisiyalı strukturu təqdim edir - kino-simfonik misteriyanı - xronikal kadrlarla müşayət olunan simfonik misteriyanı. Bəstəkar sanki hiss edirdi ki, bu simfoniya onun sonuncu əsəri olacaq, ona görə də bu əsərdə o, öz keçmiş yaradıcılıq yolunu cəmləşdirir və əvvəlki əsərlərinin materiallarından istifadə edir - S.Rüstəmin sözlərinə yazılmış solo soprano və xor üçün oratoriyasının üçüncü hissəsi - "Lay-lay", fortepiano üçün ballada, kvartet-poema, Dmitri Şostakoviçin xatirəsinə həsr olunmuş kamera-instrumental "Diloqiya" (fortepiano kvinteti və simli kvartet), Altıncı ("20 yanvar") və Yeddinci ("Şəhidlər") simfoniyalar. Beləliklə, Səkkizinci simfoniya Azərbaycan musiqisində proqramlı simfoniyanın yeni sintetik tipini yaratmışdır - yəni bütöv simfonik dramaturgiya əsasında özündə parlaq musiqi təsviri ilə dramatik tamaşa elementləri və dokumental kadrları birləşdirən bir simfonik misteriyanı.*

*Simfoniyanın musiqi dili polistilistika ilə xarakterizə olunur. Bəstəkar burada Azərbaycan lad-intonasiya sistemi ilə yanaşı atonallıqdan da istifadə etmişdir. Beləliklə, bu simfoniya Cövdət Hacıyevin bəstəkarlıq yolunu - həm obrazlı məzmun sferası, həm də musiqi dili sahəsində ümumiləşdirir. Bu simfoniyanın bəstəkar tərəfindən yazılmış müfəssəl kinossenarisi var. Və məhz bu kinossenari əsasında ekranda və musiqidə müəyyən səhnələr təsvir olunur. Simfoniyanı qiraətçi tərəfindən söylənilən "Onu zaman seçib" adlı şer müşayət edir:*

**"Sən ey yaradanım, şükürlər olsun,**
**Doğdu göylərimdə sönməz bir günəş,**
**Sevin Azərbaycan, gül Azərbaycan,**
**Ey Vətən bağçası, sən də güllər aç!**

**Onu zaman seçib nə bəxtiyarıq,**
**Mətin addımlıdır, qartal baxışlı,**
**İradəsi bütöv, məqsədi aydın,**
**Tarixdi silinməz onun yaddaşı.**

**Mənim Odlar yurdum - Azərbaycanım,**
**Heydərə söykənib, Heydər də ona.**
**O, elə müdrikdir, elə ağıllı,**
**Bu Vətən onunla gələcək cana.**

**Nə xoş mücdə verdin, Allahım bizə**
**Yetmişinci illər nə xoş il oldu.**
**Xalqın taleyidir onun qəlbində**
**Onun gəlişiylə ölkəm nur oldu.**



**Məqsədi, məramı Xalqdır, Vətəndir**
**Qurduğu dövlətin təməli dağdır.**
**Mənim Heydər adlı Azərbaycanım**
**Yurdumda əkizdir, həmişə vardır.**

**O Vətən daşıdır köksü bir ocaq,**
**Alışıb yanacaq hey zaman-zaman.**
**O, Qorqud atadır, el yiyəsidir,**
**Onun yollarına çökərmi duman?!**
**Onu zaman seçib...**

*Səkkizinci simfoniya Proloq (Başlanğıc) və üç hissədən ibarətdir ("20 yanvar", "Erməni təcavüzü", "Onu zaman seçib"). Kinossenariyə əsasən ekranda H.Əliyevin 70-ci illərdən başlayaraq Azərbaycanda dövlətçilik quruluşunun yaradıcısı, milli iqtisadiyyat, sənaye, mədəniyyət və incəsənətin inkişafı sahəsində böyük fəaliyyətini göstərən kadrlar nümayiş etdirilir.*

*Proloqun birinci bölməsində - H.Əliyev - böyük siyasi xadim, cəsarətli, mərd, mətin, aydın məqsədli, iradəli bir insan kimi göstərilir. İkinci bölmədə - 20 yanvar ərəfəsində cərəyan edən hadisələr canlanır- musiqi Moskvada olduğu kimi, Bakıda da siyasətdən süni olaraq uzaqlaşdırılmış H.Əliyevin ağır fikirlərə dalmış, Azərbaycan üzərində çökən dəhşətli fəlakətin, bədbəxtliyin düşməsini duyan simasını təsvir edir. Proloqun üçüncü bölməsində - 20 yanvar ərəfəsində gecə təqdim olunur - solistlə birgə xor musiqisi səslənir (oratoriyadan "Lay-lay"), analar balaları yatırır, uşaqlar yuxuya gedirlər...*

*Simfoniyanın birinci hissəsi ("20 yanvar") dörd bölmədən ibarətdir. Ekrandakı Qanlı yanvar gecəsi və xalqın fəryadı tragik musiqi ilə müşayət olunur. Burada bəstəkar müəllimi Dmitri Şostakoviçin musiqili monoqrammasından ("DSCH") istifadə edir. Bu motiv-monoqramma leytmotiv funksiyası daşıyır və tragik musiqini daha da gərginləşdirərək sanki bir "amansız tale" mövzusunu təcəssüm etdirir.*

*Simfoniyanın ikinci hissəsi ("Erməni təcavüzü") altı bölmədən ibarətdir və tragik obrazları davam etdirir. Birinci bölmədə - Azərbaycan ərazilərinin - Şuşa və Laçının işğalı, Azərbaycanın daxilində olan şər qüvvələrinin respublikanı parçalamaq cəhdi səhnələri təsvir olunur: Azərbaycan real olaraq vətəndaş müharibəsi təhlükəsi qarşısındadır. İkinci bölmədə - xalq vətəndaş müharibəsinin qabağının alınması naminə H.Əliyevə müraciət edir və onu Naxçıvandan Bakıya dəvət edir. Bu bölmə H.Əliyevin Bakıya gəlməsi və onun Azərbaycanın prezidenti seçilməsi ilə bitir. Üçüncü bölmədə - işıqlı obrazlar canlanır - ekranda H.Əliyevin Azərbaycanın qorunması, çiçəklənməsi uğrunda apardığı siyasi fəaliyyəti təsvir olunur: yorulmadan işləmək, Azərbaycan dövlətçiliyini yenidən təsis etməyin düzgün strateji yollarını tapmaq və Azərbaycanı siyasi, iqtisadi, sosial və mədəniyyət kimi qlobal böhrandan çıxarmaq üçün H.Əliyevin öz fəaliyyətini istiqamətləndirərək daima axtarışda olması (musiqidə H.Əliyevin qəlbində keçirdiyi mürəkkəb, çətin, əziyyətli proses əks olunur). Dördüncü bölmədə - H.Əliyevin respublikanın prezidenti vəzifəsindən kənar edilməsi məqsədilə Respublikada birinci çevriliş təşəbbüsü, H.Əliyevin xalqa müraciəti, xalqın öz prezidentinə arxa olaraq, onu müdafiə etməsi və xalqa qarşı çıxan qüvvələrin ifşa edilməsi səhnələri musiqidə və ekranda canlanır. Beşinci bölmədə - Azərbaycan dövlətçiliyinin və öz prezidentinin müdafiəsi yolunda döyüşçülərin qəhrəmancasına həlak olması səhnəsi təsvir olunur. Altıncı bölmədə - ikinci dəfə dövlət çevrilişinə təşəbbüs, yenə də Bakı və Azərbaycan üzərində vətəndaş müharibəsinin təhlükəsinin yaranması və prezident H.Əliyevin yenə də bu təhlükənin qarşısını alma səhnələri əks olunur.*

*Üçüncü hissə ("Onu zaman seçib") dörd bölmədən ibarətdir. Onlardan ilk iki bölmə baş vermiş hadisələri canlandırırsa, üçüncü və dördüncü bölmələr isə işıqlı gələcəyə ünvanlanıb. Birinci bölmədə - H.Əliyevin siyasi-mənəvi fəaliyyətinin təntənəsi təsvir olunur (Azərbaycan dövlətçiliyinin, onun silahlı qüvvələrinin, Azərbaycanın nüfuzunun beynəlxalq miqyasda möhkəmlənməsi, Azərbaycanı qalib gəlməyə və xalqı işıqlı gələcəyə aparan yol).*

*İkinci bölmədə - ekranda H.Əliyev görünür. Onun gözləri uzaq gələcəyə yönəlmişdir. O, Azərbaycan xalqının rifahı, səadəti, ülvi arzulara nail olması naminə hələ nə qədər çətin və mürəkkəb sədləri aşmaq məcburiyyətində qalacağını*

*dərk edir və görür. Üçüncü bölmənin musiqisi - Şərq və Qərbin inkişaf etmiş ölkələri sırasında layiqli olaraq yüksək yerlərdən birini tutmuş Azərbaycan dövlətinin gələcək simasını əks etdirir: Azərbaycan yüksək səviyyədə inkişaf etmiş sənaye və kənd təsərrüfatı, dünyada tanınmış mədəniyyət və incəsənəti, qabaqcıl elmi, nümunəvi əməyi olan bir respublikadır. Dördüncü bölmə (yuxarıda qeyd olunduğu kimi gələcəyə ünvanlanıb) - XXI əsrə doğru Azərbaycan xalqının gələcəkdə olacaq bayram təntənəli qələbə yürüşünü təsvir edir: Azərbaycan xalqının milli arzularının yerinə yetirilməsinə, respublikanın ərazi bütövlüyünün bərpasına sevinən xoşbəxt uşaqlar, siyasi əqidəli, mənəvi-ruhi qələbəsi olan Azərbaycan prezidenti H.Əliyevi dövrəyə almışlar. H.Əliyev Azərbaycan ordusu paradını qəbul edir, xalq arasına çıxır. Qüdrətli Azərbaycan vətəndaşı olan bir uşağı qolları üstünə alır (psixoloji zərbə: qara qüvvələrin usanmaq bilməyən əməliyyatı nəticəsində metroda baş vermiş çoxsaylı qurbanlar canlanır). Bu ağrı da H.Əliyevin qırılmaz iradəsini sarsıtmır. Ekranda onun beynəlxalq miqyasda, siyasi meydanda yorulmadan məhsuldar fəaliyyəti salnaməsinin səhifələri göstərilir. Musiqidə və ekranda canlanan adı çox əsrlik Azərbaycan tarixində Koroğlu və Babəklə bir sırada qızıl hərflərlə yazılacaq H.Əliyevin başçılığı ilə Azərbaycanın qara qüvvələr üzərində qələbəsinin qabağıalınmazlığı səhnələri bu möhtəşəm kino-simfonik misteriyanı bitirir...*

*İlk dəfə olaraq "Onu zaman seçib" adlı simfoniya 1996-cı ilin iyul ayında Kamera və Orqan musiqisi zalında Niyazi adına Azərbaycan Dövlət Televiziya və Radio Şirkətinin simfonik orkestri və "İlham" kamera orkestrinin müşayəti ilə (bədii rəhbər və baş dirijor - İsmayıl Hacıyev) ifa olunduqdan sonra, 15 oktyabr 1996-cı ildə "Azərbaycan mədəniyyətinin dostları fondu"nun həmsədri Mehriban xanım Əliyeva tərəfindən Azərbaycan simfonik musiqisinin inkişafında və konservatoriya təhsilinin təşkilində xidmətlərinə görə Cövdət Hacıyev "Yaşarı uğurlar" mükafatı ilə təltif olunmuşdur.*

**Fərəh Tahirova**